# Dağlar oğlu



**Astarada onu tanımayan yoxdur. El şənliklərini, rayon tədbirlərini onsuz təsəvvür etmək çətindir. Yaşadığı bölgədə xüsusi nüfuz qazanmışdır. İstərdik bu sənət fədaisini "Mədəni-maarif"in oxucularına da təqdim edək.**

Vaqif Rzayevi yarıciddi, yarızarafat dağlar oğlu adlandırırlar. Bu da təsadüfi deyil. Belə ki, Astara rayonunun Motayataq kəndində dünyaya göz açıb. Özünün söylədiyi kimi onu ilk sənətə səsləyən də bu kəndin gözəlliyi - Talış dağlarının qoynunda yerləşməsi, əsrarəngiz mənzərəsi, sərin bulaqları ilə diqqət çəkməsi, qədim yaşayış məskəni olmasıdır.

Orta məktəbi bitirdikdən sonra ordu sıralarına gedib. Hərbi xidmətini ləyaqətlə başa vurub. Bir müddət Sım kənd mədəniyyət evində çalışıb, aşıq sənətinin incəliklərinə yiyələnib.

Sonra tələbəlik illəri başlayıb. Ağdam musiqi texnikumunun muğam sinfində oxuduğu dövrü indi də unuda bilmir.

Burada illəri havayı ötürmür. Gözəl səsi və qabiliyyəti ilə müəllimlərinin diqqətini çəkən Vaqif xüsusi şövqlə "Qarabağ şikəstəsi", "Çahargah", "Rast" və digər muğam və təsnifləri ifa etməklə istedad sahibi olduğunu dönə-dönə sübuta yetirir. O qayğısız, əlçatmaz, ünyetməz illər bir göz qırpımında sona yetir. Vaqif Yunus oğlu Rzayev doğma kəndinə qayıdır. Motlayataq klubunda, daha sonra mədəniyyət evində direktor vəzifələrində çalışır.

Bu illər ərzində rayonun bütün mədəni tədbirlərində yaxından iştirak edir, bayram və el şənliklərində əxz etdiyi sənətin incəliklərini onu sonsuz maraqla dinləyən tamaşaçılara çatdırır. Gözəl saz çalması, özünəməxsus tərzdə aşıq mahnılarını ifa etməsi sonda ona qarşı el sevgisini artırır, bölgənin toy-düyünləri onsuz keçirilmir.

**Möhtərəm məclislərə dəvət olunur, aşıqlar qurultayında, festival və müsabiqələrdə iştirak edir. O həm də bir-birindən gözəl mahnılar müəllifidir. Maraqlıdır ki, bu mahnılar da aşıq havaları üstündə köklənib…**

**• Tural**



